## Həyatı

Azərbaycanın tanınmış şairi, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1977), Azərbaycan Respublikasın Əməkdar Mədəniyyət İşçisi (1991) Əliyev Çingiz Əli oğlu (Çingiz Əlioğlu) 29 iyun, 1944-cü ildə Füzuli (keçmiş Qaryagin) şəhərində anadan olmuşdur. Burada B.Sərdarov adına orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması və texnologiyası fakültəsində təhsil almışdır (1961-1965). Vətəndaş Həmrəyliyi Partiyasının ilk qurucularından və VHP Ali Məclisinin (Ali Şurasının) ilk üzvlərindən biri olub.

### Yaradıcılığı

Bədii yaradıcılığa "Gənc qələmlər" (1967) toplusunda çıxan "Xatirələr" şeirilə başlamışdır. Elə o vaxtdan da fəal ədəbi yaradıcılıqla məşğul olur, dövri mətbuatda şeir, hekayə, ədəbi-bədii tərcümələr və publisistik məqalələrlə müntəzəm çıxış edir.

Əmək fəaliyyətinə "Gənclik" nəşriyyatında redaktor kimi başlamışdır. Orada böyük redaktor (1977-1988), redaksiya müdiri (1988-1991), Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor (1991-1992), Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində nəşriyyatlar idarəsinin rəisi vəzifəsində çalışmışdır (1992). Gənc şairlərin Ümumittifaq poeziya festivallarında (IV, V, VI) gənc yazıçıların yeddinci Ümumittifaq müşavirəsində və birinci Ümumittifaq toplanışında, Şuşenskoyedə keçirilən yazıçı və tənqidçilərin Ümmuittifaq nəzəri konfranslarında, Krasnoyarsk diyarında, İvanovo-Frankovsk vilayətlərində, Latviya SSR-də keçirilən Sovet ədəbiyyatı günlərində, bir neçə dəfə Moskvada keçirilən Azərbaycan şeiri günlərində, Riqada və Vilnüsdə keçirilən latış, Tilva tərcüməçilərinin beynəlxalq müşavirəsində iştirak etmişdir. Əsərləri keçmiş SSRİ və bir çox Avropa xalqlarının dillərinə tərcümə olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqında gənclərlə iş üzrə komissiyanın üzvüdür. Ümumittifaq poeziya müsabiqəsinin üç qalibindən biri kimi "Yunost" jurnalının "Yaşıl yarpaq" mükafatına, Azərbaycan LKGİ MK-nın və Ukrayna KP İvanovo-Frankovsk vilayət komitəsinin fəxri fərmanlarına layiq görülmüşdür. Finlandiya Respublikası Maarif Nazirliyinin təqaüdçüsü (1990), Beynəlxalq "Kalevala" cəmiyyətinin üzvüdür.

**Təltifləri:**

"Fransisk Skorina" medalı (Belarus), 2015.

Ümumittifaq poeziya müsabiqəsinin üç qalibindən biri kimi "Yunost" jurnalının "Yaşıl yarpaq" mükafatına, Azərbaycan LKGİ MK-nın və Ukrayna KP İvanovo-Frankovsk vilayət komitəsinin fəxri fərmanlarına layiq görülmüşdür. Finlandiya Respublikası Maarif Nazirliyinin təqaüdçüsü (1990).

**Əsərləri:**

1.Nikbinlik. Bakı: Gənclik, 1969, 28s

2.Vağzallar...Yollar... Bakı: Gənclik, 1974, 72s.

3.Soraqlar sevgi məni. Bakı: Gənclik, 1978,128s.

4.Ömür ağacı. Bakı: Yazıçı, 1980, 144 s

5.Alnından ay doğan adam. Bakı: Yazıçı, 1983,152s.

6.Günəşli dayanacaqlar, Bakı: Gənc.lik, 1984, 200s.

7.Görüşdən ayrılığa. Bakı: Yazıçı, 1988, 176 s.

8.Tanrını tanı (şeirlər və lirik poemalar). Bakı: Yazıçı, 1991, 336 s.

**Tərcümələri:**

(ruscadan)

1.İ.Şklyarevski. Quş kölgəsi (povest). Bakı: Gənclik, 1979,152 s.

2.L.T.Tatyaniçeva. Bir budaq şimşək (Xəlil Rza ilə birgə). Bakı: Gənclik, 1980, 28 s.

3.R.Babloyan. İzsiz bahar (povest və hekayələr). Bakı: Gənclik, 1981, 135 s.

4.Ayven Soutoll. Bəs sabah necə? Bakı: Gənclik, 1986, 250 s.